Vəliyeva A.Q.◆

DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.44-52
UOT342.7

# Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ekstradisiyasının hüquqi əsasları

**Xülasə:** Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ekstradisiyasının hüquqi əsasları araşdırılır. Eyni zamanda məqalədə cinayətkarın verilməsi məsələsi (ekstradisiya) təkcə milli qanunvericiliyin problemi kimi deyil, həm də beynəlxalq hüququn problemi kimi qeyd edilmişdir. Müasir şəraitdə ekstradisiya institutu dövlətlər arasında beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və inkişafına öz təsirini göstərmişdir. Beləliklə, məqalədə beynəlxalq hüquqi sənədlərin, ekstradisiya məsələləri ilə bağlı qanunvericilik və digər normativ aktlar təhlil edilərək qeyd edilmişdir.

Ekstradisiya beynəlxalq hüquq yardımı, sərhəd və ölçüləri olan cinayətkarlarla mübarizədə böyük əhəmiyyətə malikdir. Eyni zamanda qeyd edə bilərik ki, ekstradisiya, ən vacib və effektiv hüquqi yardım olaraq, azadlıq və şəxsin təhlükəsizliyi ilə bağlı bəzi tədbirlərin görülməsini tələb edir.

Bundan əlavə, Ekstradisiya haqqında Avropa Konvensiyasına əsasən, siyasi, hərbi və fiskal cinayətlər istisna olunan cinayətlər kimi qeyd edilmişdir.

**Açar sözlər:** qanunsuz miqrasiya; cinayətkarın ekstradisyası; sorğu edilən şəxs.

Müasir şəraitdə ekstradisiya institutu dövlətlər arasında beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və inkişafına öz təsirini göstərmişdir. Ekstradisiya fərdin, cəmiyyətin və dövlətin qanuni mənafelərinin, hüquq və azadlıqlarınınqorunmasında, beynəlxalq hüquq qaydalarının möhkəmləndirilməsində və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynayır. Lakin bugünki gündə ekstradisiya məsələlərinə az diqqət yetirilmiş, eyni zamanda ekstradisiya institutu kifayət qədər öyrənilməmişdir.

Cinayətkarın verilməsi məsələsi (ekstradisiya) təkcə milli qanunvericiliyin deyil, həm də beynəlxalq hüququn problemi kimi qeyd etmək olar. Beynəlxalq hüquqi sənədlərin, ekstradisiya məsələləri ilə bağlı qanunvericilik və digər normativ aktların təhlili onu göstərir ki, son vaxtlarda ekstradisiya institutu daha geniş şəkildə nəzərdən keçirilməli və öyrənilməlidir.

Azərbaycan Respublikasında cinayət törətmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin verilməsi (ekstradisiya) məsələləri, onun milli qanunvericiliklə tənzimlənməsi və onunla bağlı problemlər öz aktuallığı ilə seçilir. Buna görə də məqalənin predmetini əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ekstradisiyasının hüquqi əsasları təşkil edir.

Cinayətkarların ekstradisiyası beynəlxalq hüquqi yardımın ən vacib vasitələrindən biri hesab etmək olar. Qeyd etmək istəyirik ki, tarix boyu qədim dövlətlər tərəfindən aparılmış müharibələr zamanı əsir düşmüş şəxslərin və ya krallara qarşı törədilən sui-qəsdçilərin dövlətlərarası razılaşma əsasında təhvil verilməsi hallarına rast gəlinmişdir. Belə ki,“Hakimlər Kitab”ının 20.12-ci

◆**Vəliyeva Aynur Qəhrəman qızı** – AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun “Əcnəbilərin hüquqları və miqrasiya” şöbəsinin elmi işçisi, Azərbaycan. E-mail:veliyevaa3@gmail.com

maddəsində Afinalıların Makedoniya kralı Filipin həyatına qəsd edən bütün şəxsləri təhvil verməyə razı olduğu qeyd olunmuşdur [6, s. 10].

Ekstradisiyamüqavilələri ilə bağlı ABŞ-ın federal cinayət hüququ və beynəlxalq ekstradisiya üzrə eksperti DuqlasMakNabb qeyd etmişdir ki, qədim dövrlərdə ekstradisiya ilə bağlı müqavilələrdə cinayətlərin "uzun siyahısı" verilirdi, lakin müasir müqavilələrdə minimum həbs cəzası olan cinayətlər qeyd olunur [7, s. 15].

Bildirmək istəyirik ki, bəzi avropalı ekspertlər isə ekstradisiya üzrə ikitərəfli müqavilələrə üstünlük verdiklərini ifadə etmişlər. Beləliklə, onlar hesab edirlər ki, 1957-ci ildə qəbul edilmiş çoxtərəfli konvensiya ekstradisiya məsələləri ilə bağlı ümumi problemlərin həlli qaydasını özündə əks etsə də, onun əhatə etmədiyi digər məsələlər isə ikitərəfli müqavilələrlə həll oluna bilər[5].

Buna görə də İkinci Dünya Müharibəsindən sonra fundamental insan hüquqlarına dair bir çox beynəlxalq sənəd və konvensiyalar qəbul edilmişdir. Həmin konvensiyalardan biri də Ekstradisiya haqqında Avropa Konvensiyasını qeyd etmək olar. Belə ki, bu konvensiya 1957-ci il dekabrın 13-də Paris şəhərində imzalanmışdır. 1975-ci ilin oktyabrın 15-də Əlavə Protokolu və 1978-ci ilin martın 17-də isə İkinci Əlavə Protokolu müvafiq bəyanatlar və qeyd-şərtlər ilə birgə təsdiq edilmişdir. Bu konvensiya insan hüquqları məsələlərini əhatə edən eyni zamanda ölkəmiz tərəfindən qəbul edilən beynəlxalq konvensiya olmaqla 17 may 2002-ci ildə ratifikasiya edilmişdir. Beləliklə, insan hüquqları ilə bağlı beynəlxalq sənədlərin və bu cür konvensiyaların qəbul edilməsi nəticəsində insan hüquqlarının və onların müdafiə mexanizmlərinin təməlini qoymuşdur [2].

Qeyd etmək istəyirik ki, bu kimi məsələlərin həlli zamanı humanizm və insanpərvərlik prinsiplərini daim rəhbər tutan dövlətimiz bir çox ölkələrlə azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkilməsi üçün verilməsi haqqında müqavilələr bağlamış, habelə bu sahədə Avropa Şurasının və MDB-nin Konvensiyalarına qoşularaq həmin sənədlərin icrasına xüsusi önəm verir.

Ekstradisiya sözü latın sözü olub "ex" ön şəkilçisi, "tradition" isə verilmə deməkdir. Belə ki, ekstradisiyaya belə bir anlayış vermək olar ki, cinayət törətmiş və ya cinayətdə ittiham olunan şəxsin bir dövlətin yurisdiksiyasından digər dövlətin yurisdiksiyasına verilməsi üzrə olan bir prosesdir.Cinayətkarların verilməsi ilə bağlı cinayət işlərinə dair hüquqi yardım Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, Azərbaycan Respublikası Cinayət Məcəlləsi, "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikasının Qanunu, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə tənzimlənir.

Bildirmək istəyirik ki, ölkəmizdə 2001-ci ildə daha mütərəqqi mexanizm müəyyən edən "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" qanun qəbul edilmişdir. Həmin qanunun 1.2-ci maddəsində göstərilir ki, cinayət törətmiş Azərbaycan Respublikasının ərazisində yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin verilməsinə dair Azərbaycan Respublikası ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə qarşılıqlı yardım prinsipinə riayət olunmaqla bu qanunun müddəaları tətbiq edilir. Beləlikə, həmin maddəyə əsasən bu qanun hətta müvafiq müqavilə olmadan belə ölkəmiz tərəfindən cinayətkarların verilməsinə imkan yaratdığını qeyd edə bilərik [4, s. 211].

Qeyd etmək istəyirik ki, müstəqil dövlətlərdə cinayətkarın ekstradisiyası institutu qeyri-avropa dövlətlərinə nisbətən daha çox formalaşmışdır. Ekstradisiya institutunun tarixinə baxdıqda

görərik ki, bu sahə qədim Misir, Çin, Assuriya və Babilistanda daha çox müşahidə olunmuşdur. VII əsrin sonlarından etibarən ekstradisiya əsasən siyasi cinayətkarlara və xaricilərə tətbiq edilmişdir. 19-cu əsrdə yeni növ nəqliyyat növlərinin ortaya çıxması insanların hərəkətlərinin intensivliyini artırırdı və bu da dəmir yollarında soyğunçuluğun və transsərhəd cinayətlərə yol açır və bu kimi cinayətlər getdikcə çoxalırdı. Beləliklə, ilk dəfə 19 fevral 1791-ci il tarixli Fransa Bəyannaməsində işlədilərəkdövriyəyə daxil olan ekstradisiya termini 1828-ci ildə yenə Fransanın bağladığı bir müqavilədə yer alır. Ekstradisiya ilə bağlı ilk çoxtərəfli müqavilə isə 1802-ci ildə İngiltərə-Fransa-İspaniya-Hollandiya arasında konkret cinayətlər qəsdən adam öldürmə, dələduzluq və s. cinayətlərlə əlaqədar "Treaty of Amiens" adı ilə bağlanmış Amen sazişini misal göstərmək olar [3].

Diqqətinizə çatdırmaq istəyirik ki, ekstradisiya ilə bağlı bir çox alimlərin fikirləri mövcuddur. Belə ki, Rusiya Federasiyasının alimlərindən biri olan M.D.Shargorodski qeyd edir ki, cinayətkarların ekstradisiyası məsələsi "beynəlxalq və dövlətin cinayət qanunu" ilə daha sıx bağlıdır. Bununla yanaşı, o, cinayətkarların ekstradisiyasını "məhkəmə və ya inzibati orqanın qəbul etdiyi aktın olmadığı halda, dövlət suverenliyini həyata keçirən ən yüksək dövlət qurumlarının hərəkəti kimi qiymətləndirmişdir.

Digər bir rus alimi olan İ.İ. Karpetsin fikirlərinə görə "Bəzi alimlər hesab edirlər ki, cinayətkarların ekstradisiyası ilə bağlı qərarları qəbul edən məhkəmə orqanı olmasa da,onu dövlətin və ya müvafiq orqanların qərarı kimi qiymətləndirmək olar. Eyni zamanda, ekstradisiya cinayət prosessual hüququn bir elementi kimi hesab etmək olar.Ona görə ki, ekstradisiya zamanı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müqavilədə göstərilmiş şərtlərə əsasən cinayət törətmiş şəxsin müəyyən prosessual hərəkətlərə riayət edilməklə digər ölkəyə köçürülməsi proseduru mövcuddur.

Məlumdur ki, ekstradisiyanın milli konteksdə tənzimlənməsiməsələsi son dərəcə vacibdir. Ekstradisiya dövlətin müstəsna hüququdur. Eyni zamanda ekstradisiya məsələlərini dövlət suverenliyinin sübutu kimi qiymətləndirmək olar. Belə ki, istənilən dövlət bu tələbin təmin olunmasının suverenliyə, təhlükəsizliyə, ictimai asayişə və ya digər mühüm dövlət maraqlarına zərər veriləcəyi halda ekstradisiya müqaviləsi olsa belə, inkar edə bilər.

Şərh edərək bildirmək istəyirik ki,ekstradisiya cinayət törədən şəxsin ərazisində olduğu dövlətdən ərazisində cinayətin törədildiyi dövlətə və yaxud da cinayətkarın vətəndaşı olduğu dövlətə verilməsi üzrə prosesdir. Ekstradisiyanı beynəlxalq hüquqda ölkə hüdudlarından kənarda törədilmiş cinayətə görə cinayətkarın verilməsi kimi, digər tərəfdən isə bir dövlətin sorğusu əsasında digər dövlətin qanunlarına uyğun olaraq dövlətlərarası müqavilələr əsasında tənzimlənən bir proses hesab etmək olar. Bizim fikrimizcə, müasir şəraitdə cinayətkarın təhvil verilməsi institutu özünü müstəqil, istənilən və ümumiyyətlə beynəlxalq hüquqa əsaslanan bir institut kimi qeyd etmək olar. Onun normaları, prosedurları, konsepsiyaları və prinsipləri dövlətlər arasında hüquqi yardım və əməkdaşlığın inkişafında, hüquq və azadlıqlara riayət olunmasının hüquqi təminatının təmin edilməsində, cinayətkarlığa qarşı mübarizənin, terrorizmin və dünyanın istənilən nöqtəsində digər mənfi təzahürlərin həllində mühüm rol oynayır.

Nəzərinizə çatdırmaq istəyirik ki, cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) institutu beynəlxalq cinayətlərin ayrı-ayrı növləri ilə mübarizəyə həsr olunmuş beynəlxalq sazişlərə, dövlətlər arasında xüsusi olaraq bağlanmış regional müqavilələrə, ekstradisiya və ya cinayət işləri üzrə hüquqi yardım göstərilməsi haqqında ikitərəfli müqavilələrə əsaslanır. Belə ki, ekstradisiya sahəsində qəbul edilmiş regional müqavilələri, Avropa Şurasının üzv dövlətləri arasında 1957-ci ildə bağlanmış "Cinayətkarların verilməsi haqqında Avropa Konvensiyasını(bundan sonra-konvensiya)", Britaniya Millətlər Birliyi üzvləri tərəfindən 1966-cı ildə bağlanmış "Cinayətkarların

verilməsi haqqında Müqaviləni”, dörd Afrika ölkəsi (Benin, Qana, Nigeriya və Toqo) arasında l984-cü ildə bağlanmış “Cinayətkarların verilməsi haqqında Sazişi”, on keçmiş sovet respublikası tərəfindən 1993-cü ildə imzalanmış “Hüquqi yardım və mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər haqqında Konvensiyanı” misal göstərmək olar.

Qeyd etmək lazımdır ki, Avropa Birliyinin əksər dövlətləri 1957-ci il tarixli Avropa Konvensiyasında nəzərdə tutulduğu kimi, öz aralarında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında müqavilə bağladıqlarına görə, öz vətəndaşlarının verilməsi barədə razılaşmalara malikdirlər. Belə ki, razılığa gələn tərəflər sorğu edən tərəfin səlahiyyətli orqanlarının hər hansı cinayətə görə barəsində cinayət təqibini həyata keçirdikləri yaxud göstərilən orqanların hökmün və ya həbs barədə qərarın icrası üçün axtardıqları bütün şəxsləri bir-birinə verməyi öhdələrinə götürürlər.

Ekstradisiya ilə bağlı konvensiyalar və sazişlər adətən prosedur qaydalarına malik deyildir. Ekstradisiya prosesinin mərhələləri, həmçinin ekstradisiya tələblərinə baxılması və qərar verməsi üçün səlahiyyətli orqanlar milli qanunvericilikdə müəyyənləşdirilir.

Törədilən siyasi, hərbi, fiskal cinayətlərlə bağlı 1957-ci il Ekstradisiya haqqında Avropa Konvensiyasındaekstradisiyanın tətbiq edilməsi ilə əlaqədar məsələlər də öz əksini tapmışdır. Belə ki, siyasi cinayətlə bağlı göstərilmişdirki, sorğu edən tərəf cinayəti siyasi cinayət hesab və yaxud siyasi cinayətlə bağlı cinayət hesab edirsə, bu zaman qeyd olunan cinayətlə bağlı ekstradisiya həyata keçirilmir. Bu prinsipə əsasən istənilən dövlətin istintaqa verilən cinayətin siyasi xarakterli olduğu təqdirdə, istənilən dövləti ekstradisiyadan imtina etməsinə icazə vermək məqsədi daşıyır və eyni zamanda dövlətləri dostluq münasibətlərini təmin etməyə imkan verir. Eyni zamanda ekstradisiyadan imtina edilməsi istənilən dövlətin daxili işlərinə qarşı qeyri-adekvat müdaxilə hesab edilmir. Beləliklə qeyd edə bilərik ki, “Siyasi cinayət” in tərifi praktikada uzun müddət mübahisəli olmuşdur.

Bildirmək istəyirik ki,konvensiyada hərbi cinayətləradi cinayət hüququna aid edilir vəekstradisiya cinayət sayılmayan hərbi cinayətlərə tətbiq olunmur.Eyni zamanda bu kimi hərbi cinayətlər isəkonvensiyanın tətbiq dairəsindən çıxarılmışdır.Konvensiyanın 5-ci maddəsinə əsasən fiskal cinayətlərlə bağlı isə qeyd edilmişdir ki, vergilər, rüsumlar, gömrük rüsumları və valyuta əməliyyatları ilə bağlı cinayətlərə görə ekstradisiya o halda tətbiq edilir ki, razılığa gələn tərəflər hər hansı belə cinayət və ya cinayətlər kateqoriyası ilə bağlı bu barədə qərar qəbul etmiş olsunlar.

Məlumdur ki, ekstradisiyaya səbəb olan cinayət cinayətin müəyyən ağırlıq dərəcəsinə uyğun olmalıdır. Cinayətin ağırlığının müəyyənləşdirilməsi isə dövlətlər tərəfindən iki fərqli sistemlə həyata keçirilir. Bu sistemlərdən birincisi “sayma sistemi”dir ki, sayma sistemi ekstradisiyaya səbəb ola biləcək cinayətlər tək-tək sayılaraq ağırlıq dərəcəsi ilə müəyyən olunur. Bu cür sistemin tətbiqinə misal olaraq, Türkiyə ilə ABŞ arasında 6 avqust 1923-cü ildə bağlanmış ekstradisiya haqqında müqaviləni qeyd etmək olar. Belə ki, ikinci sistem isə “Ekstradisiya haqqında” Avropa Konvensiyasına və dövlətlərarası ikitərəfli müqavilələrdə “cəzanın minimum həddi” adlanan ikinci sistemin əsas götürülməsidir. Bu sistemə görə, ekstradisiya tətbiq ediləcək cinayətlər üçün minimum cəza həddi müəyyənləşdirilir və həddi aşan cinayətlərlə bağlı ekstradisiya müəyyən edilir. Bu sistemə isə nümunə olaraq, anqlo-sakson hüquq sistemli Birləşmiş Krallıq və ABŞ praktikasını göstərmək olar. Hətta Anqlo-Sakson sistemində Roman-German hüquq sistemindən fərqli olaraq, ekstradisiyanın tətbiq oluna biləcəyi cinayətlərin siyahıya alınmasına dair cəhdlər olmuşdur. Eyni zamanda Roman-German sisteminə aid hüquqi aktlarda isə yalnız ekstradisiyanı istisna edən cinayətlərin konkret dairəsi müəyyənləşdirilir [1].

Qeyd etmək istəyirik ki, BMT İqtisadi və Sosial Şurasının "Cinayət təqibində xarici vətəndaşların vəziyyəti" adlı 1998/22 saylı Qətnaməsinə əsasən üzv dövlətlər üzərinə aşağıdakı tədbirləri həyata keçirmək öhdəlikləri qoyulmuşdur. Həmin öhdəliklərinə əsasən cinayət mühakiməsi altında olan xarici vətəndaşların cinayət prosesinin bütün mərhələlərində ümumtanınmış hüquqlarla təmin edilməsini diqqətlə araşdırılmalı; belə şəxslərin öz ölkəsinin vətəndaşı olmadığı üçün daha ciddi azadlıqdan məhrumetmə cəzalarına məruz qalmamasının və ya pis həbsxana şəraitində saxlanılmamasının təmin edilməsi; öz dövlət dili ona qarşı ittiham irəli sürən dövlətin dili ilə eyni olmayan xarici vətəndaşların həmin məhkəmə prosesini başa düşməməsi səbəbindən onun mümkün dərəcədə öz dilində tərcümə xidmətindən istifadəsi üçün vacib tədbirlərin həyata keçirilməsi; öz daxili qanunvericiliyi və təcrübəsində icazə verilən hallarda öz vətəndaşları ilə bərabər xarici vətəndaşların da ittiham prosesini aparan dövlətin qanunvericiliyi üçün nəzərdə tutulmuş müvafiq qanuni tələbləri, alternativ cəza hökmlərini və ya inzibati cəzaların yerinə yetirilməsinin mümkünlüyü;konsulluq idarələrinə onların vətəndaşlarının həbsi ilə əlaqədar bildirişin verilməsini də özündə əks etdirən Konsulluq münasibətləri haqqında Vyana Konvensiyası kimi beynəlxalq sənədlərin tətbiq edilməsinin həyata keçirilməsi sahəsində cəhdlərin gücləndirilməsi" kimi tədbirlər görülməlidir [2].

Bildirmək istəyirik ki, müasir beynəlxalq hüquqda ekstradisiya yalnız məhkum olunmuş və ya cinayətkar olduğu güman edilən, yəni cinayət törədilməsində ittiham edilən şəxslərə tətbiq olunur. 1957-ci il tarixli Avropa Konvensiyasına əsasən bir qayda olaraq, ekstradisiya sorğu edən tərəfin və sorğu edilən tərəfin qanunvericiliyinə müvafiq olaraq azadlıqdan məhrum etmə ilə cəzalandırılan yaxud həbs barədə qərara uyğun olaraq maksimum müddətə ən azı bir il müddətinə həbs cəzası və ya daha ciddi cəza ilə cəzalandırılan cinayətlərlə bağlı həyata keçirilir. Məhkum etmə və həbs cəzası yaxud tutma haqqında qərar sorğu edən tərəfin ərazisində həyata keçirildiyi hallarda müəyyən edilmiş cəza müddəti isə dörd aydan az olmamalıdır. Əgər ekstradisiya haqqında sorğuya bir sıra ayrı-ayrı cinayətlər daxildirsə və onlardan hər biri sorğu edən tərəfin və sorğu edilən tərəfin qanunvericiliyinə müvafiq olaraq azadlıqdan məhrum etmə ilə cəzalandırılmalıdırsa yaxud onların hər birinə tutma haqqında qərarın qüvvəsi şamil edilirsə, lakin onlardan bəziləri cəza müddəti ilə bağlı müəyyən edilə bilən şərtə cavab vermirsə, sorğu edilən tərəf, həmçinin digər cinayətlərə görə də ekstradisiyanı həyata keçirmək hüququna malikdir [1, s. 25].

Ekstradisiya haqqında Azərbaycan Respublikasının qanunun 2-ci maddəsinə əsasən Xarici dövlət tərəfindən verilməsi sorğu edilən şəxs yalnız onun törətdiyi əməl Azərbaycan Respublikasının və sorğu edən dövlətin qanunvericiliyinə uyğun olaraq cinayət sayıldıqda və həmin əməlin törədilməsinə görə azı bir il azadlıqdan məhrumetmə cəzası, yaxud daha ağır cəza növü nəzərdə tutulduqda verilə bilər. Törətdiyi cinayətə görə xarici dövlətin məhkəməsi tərəfindən azadlıqdan məhrumetmə cəzasına, yaxud daha ağır cəza növünə məhkum olunmuş şəxs cəzanın icrası üçün verilə bilər. Bu halda azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş müddəti altı aydan az ola bilməz.

Nəzərinizə çatdırmaq istəyirik ki, şəxsin verilməsindən aşağıdakı hallara əsasən imtina edilə bilər:sorğu edilən şəxs onun verilməsi haqqında məsələ həll etdiyi zaman Azərbaycan Respublikasının vətəndaşı olduqda; verilməsi haqqında sorğu edilən şəxsə Azərbaycan Respublikası ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada siyasi sığınacaq verildikdə; verilməsi haqqında sorğu edilən şəxsin törətdiyi və verilməyə əsas olan əməl Azərbaycan Respublikası tərəfindən siyasi xarakterli cinayət sayıldıqda;verilməyə əsas olan cinayət Azərbaycan Respublikası ərazisində törədildikdə; şəxsin verilməsinə əsas olan cinayətə görə Azərbaycan Respublikasının

ərazisində qanuni qüvvəyə minmiş hökm və ya cinayət təqibinə xitam verilməsi haqqında qərar olduqda; Azərbaycan Respublikasının və ya sorğu edən xarici dövlətin cinayət qanunvericiliyinə əsasən, cinayət məsuliyyətinə cəlbetmə, yaxud ittiham hökmünün icrası müddətləri keçdikdə; şəxsin verilməsinə əsas olan cinayət sorğu edən xarici dövlətin qanunvericiliyində hərbi xidmət əleyhinə cinayət kimi nəzərdə tutulduqda və hərbi xidmətlə bağlı olmayan başqa cinayətin tərkibini yaratmadıqda;cinayət törətmiş şəxslərin verilməsi ilə bağlı sorğu edən xarici dövlət tərəfindən qarşılıqlı yardım prinsipinə riayət olunmadığı halda müəyyən edilir.

Nəzərinizə çatdırmaq istəyirik ki, cinayətkarın ekstradisiyası ilə bağlı sorğu "Ekstradisiya haqqında" Avropa Konvensiyasına və ona uyğun qəbul edilmiş milli qanunvericiliyimizin tələblərinə uyğun olaraq yazılı şəkildə verilir. Həmin sorğu diplomatik kanallarla ötürülür və yaxud sorğunu Xarici İşlər Nazirliyi və yaxud da hüquq-mühafizə orqanları tərəfindən verə bilərlər. Bundan başqa, sənədlər sorğu edən, yaxud sorğu edilən tərəfin dilində təqdim edilir. Sorğu edilən tərəf öz seçiminə görə sənədlərin Avropa Şurasının rəsmi dillərindən birinə tərcüməsini tələb edə bilər. Bu baxımdan, cinayət törətmiş şəxsin verilməsi ilə bağlı təqdim olunan sənədlər Azərbaycan dilinə, yaxud Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin razılğı əsasında BMT-nın rəsmi dillərindən birinə tərcümə olunur.

"Cinayət törətmiş şəxslərin verilməsi(ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Qanunun Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2001-ci il tarixli 499 saylı Fərman imzalamışdır. Həmin Fərmanda "Cinayət törətmiş şəxslərin verilməsi(ekstradisiyası) haqqında" Azərbaycan Respublikası Qanununun bir sıra maddələrində müəyyən edilmiş Azərbaycan Respublikasının müvafiq icra hakimiyyətinin səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Daxili İşlər Nazirliyinin həyata keçirməsi nəzərdə tutulmuşdur. Beləliklə, Azərbaycan Respublikasında ekstradisiya məsələlərinin əksər prosedur qaydaları birmənalı olaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə həvalə edilmişdir.

Azərbaycanda ekstradisiyanın prosedur qaydalarına əsasən, hər hansı xarici dövlətin səlahiyyətli orqanı təqdim olunan şəxsin verilməsi haqqında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə yazılı şəkildə sorğu göndərməlidir [2].

Ekstradisiya haqqında Azərbaycan Respublikası qanunun 5-ci maddəsinə əsasən sorğuda müəyyən edilmiş göstəricilər öz əksini tapmalıdır. Beləliklə, həmin göstəricilərə əsasən sorğu edən xarici dövlətin səlahiyyətli orqanının adı, sorğu edilən şəxsin adı, soyadı, atasının adı, doğulduğu tarix, vətəndaşlığı, daimi yaşayış yeri və olduğu yer, zahiri görkəminin təsviri, şəxsiyyətinin və vətəndaşlığının müəyyən edilməsi üçün zəruri olan məlumatlar, ekstradisiyaya əsas olan cinayətin təsviri, törədildiyi vaxt, yeri, digər faktiki halları, müvafiq qanuna istinad etməklə törədilmiş əməlin hüquqi tövsifi, cinayət nəticəsində vurulmuş maddi ziyanın həcmi və başqa zərərli nəticələri, mümkün olduqda sorğu edilən şəxsin fotoşəkil və əl barmaqlarının izləri əlavə edilməlidir. Bundan başqa, cinayət törətmiş şəxsin verilməsi haqqında sorğuya cinayətin törədilməsində ittiham olunan şəxs barəsində məhkəmə və ya istintaq orqanı tərəfindən çıxarılmış həbs qərarının notarial qaydada təsdiq surəti, ekstradisiya edilən şəxs məhkum olunmuşdursa, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün təsdiqlənmiş surəti əlavə edilir [4].

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi xarici ölkədən sorğu daxil olduğu vaxtdan ən geci 7 gün müddətində təqdim olunmuş sənədləri yoxlayır və xarici dövlətin səlahiyyətli orqanına müvafiq sənədlərin təqdim olunması haqqında müraciət edir. Bu müraciətə 1 aydan gec olmayan müddətə cavab alınmalıdır. Qanuna görə bu müddət xarici dövlətin

vəsatətinə əsasən 1 ay müddətinə uzadıla bilər. Cinayət törətdiyinə görə xarici ölkəyə verilməsi nəzərdə tutulan şəxs vətəndaşı olduğu dövlətin rəsmi nümayəndəsi ilə əlaqə yaratmaq və onunla görüşmək hüququna malikdir. Ədliyyə Nazirliyi cinayət törətmiş şəxsin verilməsi vaxtı və yeri haqqında xarici dövlətin səlahiyyətli orqanına məlumat verir. Xarici dövlət 15 gün müddətində sorğu edilən şəxsi qəbul etmədikdə, həmin şəxs azad olunur. Qanuna əsasən, sorğu edən dövlətin vəsatətinə əsasən ekstradisiya edilən şəxsin qəbul etdilməsi müddəti Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən müəyyən olunmuş vaxtdan etibarən 30 gündən artıq olmamaq şərti ilə uzadıla bilər. Şəxsin verilməsi ilə bağlı bütün xərclər sorğu edən xarici dövlət tərəfindən ödənilir. Şəxsin verilməsi ilə bağlı bütün əlaqələr Ədliyyə Nazirliyi vasitəsi ilə həyata keçirilir.

## Biblioqrafiya


1. Ağasiyev R.M. Azərbaycan Respublikasının konstitusiyasında readmissiyanın (geri çağırılmanın) hüquqi əsasları // Qanun jurnalı. 2017. - № 05 (271), - s. 34-37.
2. Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında 15 may 2001-ci il 132-IIQ№li Qanunu [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/3550(müraciət tarixi 25.09.2019).
3. Ekstradisiya haqqında 24№li Avropa Konvensiyası. Strasburq 13 dekabr 1957-ci il [Elektron mənbə]. URL:http://www.e-qanun.az/framework/963 (müraciət tarixi 25.09.2019).
4. Həşimova L. Beynəlxalq cinayət hüququnda ekstradisiya və bu kontekstdə insan hüquqları // BDU Tələbə Hüquq Jurnalı, 2017. Burax. 3:2, - s. 210-228.
5. Xarici ölkələrdə həbs olunmuş, tutulmuş və məhkum olunmuş Azərbaycan Respublikası vətəndaşları üçün məlumat kitabçası [Elektron mənbə]. URL:http://www.mfa.gov.az/files/file/ Melumat%20kitabchasi.pdf (müraciət tarixi: 23.09.2019).
6. ÖmərovV.Ekstradisiya təsisatı və insan hüquqları, 01.02.2016-cı il, "Səs"qəz., Bakı, 2016, 1 fevral.
7. Extradition. European standards. Council of Europe Publishing, 2007, 168 p. ISBN 978-92-71-6076-8

**Valiyeva A.G.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.44-52**
**УДК 342.7**

## Legal bases of extradition of foreigners and stateless persons

**Abstract:** It is examined the legal basis for extradition of foreigners and stateless persons. At the same time, the issue of extradition is not only a problem of national law but also a problem of international law. In modern conditions, the institution of extradition has contributed to the strengthening and development of international cooperation between states. An analysis of international legal documents, extradition legislation and other regulations shows that the institution of extradition has to be revised and studied more extensively recently.

Extradition international legal assistance has big importance in the fight against crime and criminals having transborder dimension. At the same time, we can note that extradition, as a most important and effective legal assistance, entails taking some measures in relation to liberty and security of person.

In addition, political, military and fiscal offenses under the European Convention on Extradition are excluded.

**Keywords:** illegal migration; extradition of the offender; the requested person.

## References

1. Agasiyev R.M. *Azerbaijan Respublikasinin konstitusiyasinda readmissiyanin (geri chagi-rilmanin) huquqi esaslari* [Legal basis of readmission (recall) under the Constitution of Azerbaijan Republic]. *Qanunjurnali- Law Journal*, 2017, no. 05 (271), pp. 34-37.

2. *Cinayet toretmish shehslerin verilmesi (ekstradisiya) haqqinda 15 may 2001-ci il No. 132-IIQ Qanunu* [The Law no. 132-IIQ of 15 May 2001 On extradition of persons who have committed crimes]. Available at: http://www.e-qanun.az/ framework/3550 (accessed 25.09.2019).

3. *Ekstradisiya haqqinda 24 No.li Avropa Konvensiyasi* [European Convention no. 24 On Extradition]. Strasbourg 13 December 1957. Available at: http://www.e-qanun.az/framework/963 (accessed 25.09.2019).

4. Hashimova L. *Beynelxalq cinayet huququnda ekstradisiya ve bu kontekstde insan huquqlari* [Extradition in international criminal law and human rights in this context]. *BDU Telebe Huquq Jurnali – BSU Student Law Journal*, 2017, issue 3:2, pp. 210-228.

5. *Xarici olkelerde hebs olunmush, tutulmush ve mehkum olunmush Azerbaijan Respublikasi vetendashlari uchun melumat kitabchasi* [Information booklet for the citizens of Azerbaijan Repub-lic who arrested, detained and convicted in foreign countries]. Available at: http://www.mfa.gov.az/files/file/Melumat%20kitabchasi.pdf (accessed 23.09.2019).

6. Omerov V. *Ekstradisiya tesisati ve insan huquqlari* [Institute for Extradition and Human Rights]. *Ses qaz. – Voice newspaper*, 01.02.2016.

7. Extradition. European standards. Council of Europe Publishing, 2007, 168 p. ISBN 978-92-871-6076-8

♦**Valiyeva Aynur Gahraman gizi** – Researcher of theDepartment of “Foreigners' Rights and Migration” of the Institute on Law and Human Rights of the Azerbaijan National Academy of Sciences, Azerbaijan. E-mail: veliyevaa3@gmail.com

**Велиева А.Г.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.61.44-52**
**УДК 342.7**

## Правовые основы выдачи иностранцев и лиц без гражданства

**Аннотация:** Рассматриваются правовые основы выдачи иностранцев и лиц без гражданства. В то же время проблема выдачи (выдачи) является не только проблемой национального права, но и проблемой международного права. В современных условиях институт экстрадиции способствовал укреплению и развитию международного сотрудничества между государствами. Таким образом, в статье анализируются международно-правовые документы, законодательство и другие нормативные акты, связанные с выдачей.

Выдача имеет решающее значение в международной юридической помощи, когда речь идет о преступниках с границами и размерами. В то же время мы можем отметить, что выдача, как наиболее важная и эффективная юридическая помощь, требует некоторых мер в отношении свободы и безопасности.

Кроме того, исключены политические, военные и финансовые преступления, предусмотренные Европейской конвенцией о выдаче.

**Ключевые слова:** нелегальная миграция; экстрадиция преступника; запрашиваемое лицо.

### Библиография

1. Агасиев Р.М. Правовые основы реадмиссии (отзыва) по Конституции Азербайджанской Республики // Журнал Ганун, 2017. - №05(271). - С. 34-37. (на азерб. яз).
2. Закон № 132-IIQ от 15.05.2001 «О выдаче (экстрадиции) лиц, совершивших преступление» [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/ 3550 (дата обращения: 25.09.2019) (на азерб. яз.).
3. Европейская Конвенция №24 «Об экстрадиции». Страсбург 13.12.1957 г. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/963 (дата обращения 25.09.2019) (на азерб. яз.).
4. Хашимова Л. Экстрадиция в международном уголовном праве и в этом контексте права человека // Студенческий правовой журнал БГУ, 2017. Выпуск 3:2. - С. 210-228. (на азерб. яз.).
5. Информационный буклет для граждан Азербайджанской Республики, арестованных, задержанных и осужденных зарубежом [Электронный ресурс]. Режим доступа: http://www.mfa.gov.az/files/file/Melumat%20kitabchasi.pdf (дата обращения 23.09.2019) (на азерб. яз.).
6. Омеров В. Институт экстрадиции и права человека. Газета Сес, 01.02.2016. (на азерб. яз.).
7. Extradition. Europeanstandards. Council of EuropePublishing, 2007, 168 p. ISBN 978-92-871-6076-8

---

[♦]**Велиева Айнур Гахраман кызы–** научный сотрудник, отдел «Права иностранцев и миграция», Институт права и прав человека НАНА, Азербайджан. E-mail:veliyevaa3@gmail.com